# İlham MƏMMƏDLİ - 60



Hörmətli İlham müəllim!

Sizi - istedadlı ədəbiyyatşünas və publisisti anadan olmağınızın 60 illiyi münasibətilə təbrik edirik. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirdikdən sonra "İşıq" nəşriyyatında əmək fəaliyyətinə başlamısınız. 1990-1997-ci illərdə publisistikanın ön xəttə keçdiyi bir vaxtda "Həyat", "Respublika" qəzetlərində, həmçinin "Azərbaycan aqrar elmi", "Himayədar" jurnallarında əməkdaşlıq etməklə yanaşı, Qarabağ problemi, qaçqın düşmüşlərin müsibəti, dünyanın bu faciəyə biganəliyini əks etdirən tutarlı publisist yazılarla çıxış etmisiniz.

Sizin ədəbiyyatşünas kimi fəaliyyətiniz də doğma yurdundan didərgin düşmüş söz sənətinə, onun tədqiqi və təbliğinə həsr edilmişdir. Filologiya üzrə fəlsəfə doktorluğu işiniz Kəlbəcər ədəbi mühitinə həsr edilmişdir. Bu mövzuda çap etdirdiyiniz "XX əsr Kəlbəcər ədəbi mühiti" monoqrafiyanız və yazdığınız çoxsaylı məqalələrinizdə ədəbiyyatımızın zəngin qollarından olan bir bölgənin ədəbi sərvətinin tarixi kökləri və müasir durumu müfəssəl tədqiq olunur. Sizin zəhmətiniz sayəsində bu bölgənin yüzdən artıq şairinin seçilmiş şeirlərindən ibarət "Kəlbəcərin söz sərvəti" başlıqlı antologiya çap etdirilmişdir.

İlham müəllim! Siz on ildə XX əsr (Sövet dövrü) ədəbiyyatının nümayəndələri haqqında portret oçerklər yazmısınız. Hazırda "Dördlük formasının genezisi və müasir Azərbaycan şeirində poetik təkamülü" mövzusunda tədqiqat işini bitirmək üzrəsiniz. Ədəbiyyatşünaslıqla yanaşı, publisist kimi də səmərəli fəaliyyət göstərirsiniz. "Bütöv Azərbaycan" qəzetinin baş redaktoru və müəlliflərindən biri kimi otaylı-butaylı vətənimizin ədəbi-ictimai problemlərini işıqlandırırsınız.

Sizi bir daha təbrik edir, yaradıcılıq uğurları diləyirik.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 11 fevral.- S. 10.